# Cənubi Azərbaycan folkloru haqqında nələri bilmirik?..

## Mətanət Abbasova: "...Digər bölgələrdə olan folklor janrlarının da toplanmasına ehtiyac var"

**Azərbaycan ağız ədəbiyyatı çox zəngindir və bir neçə janrı əhatə edir. Ulularımız ən qədim çağlarda unikal nümunələr yaradıblar ki, biz onları folklor adlandırırıq. Bir çox tədqiqatçılar folkloru kollektiv yaradıcılığa aid etsələr də, fikrimizcə, bu yanlışdır, folklor nümunələrini yaradan şəxslər olub ki, onların dilindən bu örnəklər xalq arasında yayılıb.**



İlk folklor nümunələrimiz əmək nəğmələridir ki, biz onların örnəklərini bütöv Azərbaycan folklorunda, şifahi xalq ədəbiyyatında görə bilirik. Azərbaycan folklorunun zəngin olduğunu qeyd edərkən vurğulamalıyıq ki, bura Cənubi Azərbaycandan, Anadoludan, Kərkükdən, Borçalıdan, Göyçədən, Zəngəzurdan, İrəvandan, Dərbənddən və başqa yerlərdən tutmuş Şimali Azərbaycana qədər böyük bir ərazidə yaranan folklor xəzinəsi daxildir.

"Türkün dilitək sevgili dil olmaz" rubrikasında Güney Azərbaycan folklorundan danışacağıq. Onu da deyək ki, AMEA-nın Folklor İnstitutunda ayrıca Cənubi Azərbaycan Folkloru şöbəsi fəaliyyət göstərir və bu şöbə Azərbaycanın Güneyində formalaşan şifahi xalq ədəbiyyatını, folklor külliyyatını toplayıb nəşr edir.

AMEA-nın Folklor İnstitutunun Cənubi Azərbaycan Folkloru şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Mətanət Abbasova "Bakı-Xəbər"ə Cənubi Azərbaycan folklorunun öyrənilən və öyrənilməyən istiqamətlərindən danışdı. "...Ümumi Azərbaycan folklorunun Cənub şifahi xalq sənəti istiqamətində toplama, nəşr və tədqiqinin aparılması, sözsüz ki, istər Sovetlər birliyi, istərsə də müstəqillik dövründə müəyyən çətinliklərlə həyata keçirilib.

Qeyd edək ki, məlum siyasi-ideoloji problemlərə baxmayaraq, Cənubi Azərbaycan folklorunun toplanması və nəşri Sovetlər Birliyi dövründə də Azərbaycan ziyalıları, alimlərinin diqqət mərkəzində saxlanılıb. Cənubda toplama işinin aparılmasındakı qadağalar, dövlətlərarası siyasi gərginlik şəraitində folklor örnəklərinin bir araya gətirilməsi əsasən əlyazma mətnləri, eləcə də cənublu soydaşlarla şəxsi görüşlər zamanı əldə edilib, bu materialların nəşri məsələsi də Sovetlər birliyi dövründə mövcud ideoloji düşüncə baxımından mümkünsüz olub. Lakin ümummilli lider Heydər Əliyevin güclü siyasi iradəsi sayəsində diplomatik şəkildə bu proqram həyata keçirilib. İlk dəfə olaraq Cənubi Azərbaycan folkloru nümunələrinin sistemli şəkildə bir arada nəşri məsələsi AMEA Nizami adına Ədəbiyyat İnstitutunun təşəbbüsü sayəsində mümkün olub. İnstitutun Cənubi Azərbaycan ədəbi mühiti ilə bağlı hazırladığı "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" 4 cildlik topluda yazılı nümunələrlə yanaşı, müxtəlif folklor örnəklərinə də geniş yer verilib".

M.Abbasova qeyd etdi ki, AMEA-nın Ədəbiyyat İnstitutunun Cənub folkloru ilə bağlı məlum tarixi xidməti ardıcıl şəkildə ayrı-ayrı alim, mütəxəssislərin bu sahəyə olan marağını da artırıb. "Belə ki, mərhum folklorşünas alim prof. Bəhlul Abdulla 1986-cı ildə yazıçı Mirzə İbrahimovun təşəbbüsü ilə Təbrizdə çap olunmuş kitab və məcmuələrdən topladığı folklor örnəklərini "Arazam, Kürə bəndəm" başlığı altında nəşr etdirir. Davamlı şəkildə cənublu soydaşımız Əhməd Azərlu tərəfindən toplanıb tərtib olunan atalar sözləri 1994-cü ildə yenə də prof. B.Abdullanın ön sözü ilə "Təbrizdən dörd dəftər" adı altında işıq üzü görür. Kitabda verilən məlumatlara görə, Əhməd Azərlu bu nümunələri vaxtilə ana babası Hacı Məhəmməd Cəfərzadə Batumçının tapşırığı ilə hələ kiçik yaşlarından toplamağa başlayıb, 1941-ci ildə babası vəfat etdikdən sonra da toplama işi ilə müntəzəm məşğul olub. Cənubi Azərbaycanın şəhər və kəndlərindən toplanan bu folklor nümunələri daha çox Qaradağ mahalından əldə edilib.

Azərbaycan folklor mədəniyyətinin Cənub şifahi ədəbiyyat ənənələri əsasında araşdırılması, tədqiqi müstəqillik dövründə daha çox aktuallıq qazanıb və həm də siyasi xarakter daşıyıb...

Kiçik həcmli folklor janrlarından fərqli olaraq, Cənubi Azərbaycan folklorunun dastançılıq ənənələri bu dövrdə el aşıqlarımızın repertuarları da daxil olmaqla toplama və nəşr işində daha geniş yer alır. Cənub aşıq mühitləri - Urmiya, Qaradağ-Təbriz, Qaşqay, Savə, Sulduz, Zəncan, Xorasan və bu mühitlərin məlum dastan söyləmə üslubları, havaları arasında müxtəliflik, fərqlər zəngin xəzinənin öyrənilməsinə daha çox maraq yaradırdı. Professor Məhərrəm Qasımlının "Aşıq sənəti" adlı monoqrafiyasında xüsusi olaraq Cənub aşıq mühitləri (Urmiya, Zəncan, Savə, Qaşqay) tədqiq olunub, müqayisələr aparılıb.

Cənubi Azərbaycan aşıqlarının arxivlərimizdə qorunan onlarca dastan variantlarına baxmayaraq, nümunələrin nəşri və tədqiqatlarda yer alması da məhz müstəqillik dövründə həyata keçirilir. Müşahidələr göstərir ki, Güney Azərbaycan aşıqlarının repertuarında bu və ya digər dastanlardan fərqli olaraq "Koroğlu" dastanına xüsusilə geniş yer verilib. Cənub folklor nümunələrinin zamanla toplanması ilə məşğulkən Əli Kəmali bu işdə "Koroğlu" dastanının müxtəlif variantlarının əldə olunmasına çalışıb. Toplanan nümunələrin çap etdirilməsinə imkan olmadığından folklor örnəkləri uzun zaman Əli Kəmalinin arxivində saxlanıb. 1991-ci ildə Tehranda olarkən Folklor İnstitutunun əməkdaşı folklorşünas Əli Şamil toplayıcıdan bu nümunələrin əldə edilməsinə nail olub və dastanın Təbriz variantları 2009-cu ildə Folklor İnstitutu tərəfindən nəşr olunub.

Müstəqillik dövrü Cənubi Azərbaycan folklorunun sistemli şəkildə toplanma, nəşr və tədqiqi məsələlərinin bir arada elmi istiqamətdə öyrənilməsi sözsüz ki, AMEA-nın Folklor İnstitutu tərəfindən həyata keçirilib".

M.Abbasovanın sözlərinə görə, folklorun bütün janrlarında araşdırma aparılıb. "XV cilddə Güney Azərbaycan Folkloru kitabı çap olunub. Burada daha çox atalar sözlərinə, bayatılara, xalq inanclarına, mərasimlərə, laylalara, rəvayətlərə yer verilib. Eyni zamanda ayrıca olaraq aşıq dastanlarını öyrənmişik. Kitabımızın beş cildi aşıq dastanlarına həsr olunub. Ümumilikdə, 37-dən artıq aşıq dastanını qeydə almışıq. Həm də nəzərinizə çatdıraq ki, bu dastanların beşi istisna olmaqla qalanları səsli fayllardan köçürülərək götürülüb. Kitablarımızda ayrıca aşura mərasimləri, çillələrlə bağlı məlumatlar var. Ümumi baxanda Azərbaycan folkloru ilə bağlı bütün janrlar üzrə məlumatları toplamışıq. Təbii ki, çox zəngin bir mənbədir və bu mənbənin hələ öyrənilməsini hələ də davam etdiririk. Məsələn, biz Təbriz yörəsində, Ərdəbildə, Urmiyada atalar sözlərini, yaxud mərasimləri toplamışıq. Amma digər bölgələrdə olan folklor janrlarının da toplanmasına ehtiyac var. Aşıq ədəbiyyatı Cənubi Azərbaycanda bir dəryadır. Biz sadəcə olaraq 37 dastanı qeyd etdik, amma Cənubi Azərbaycanda onlarla dastan mövcuddur ki, onlar da yazıya alınmalıdır. Ona görə də, bizim tədqiqatlarımız yenə də dastanlarımızın, təkrar olaraq mərasimlərin öyrənilməsi istiqamətində gedir. Daha çox atalar sözlərini və bayatıları toplamışıq, amma digər janrlarda da bölgələr üzrə araşdırmamızı aparırıq. Bir məqamı da vurğulayım ki, məsələn, Təbriz, Urmiya, Ərdəbl, Xorasan və sair ərazilərdə dialektlər fərqli olduğuna görə biz o nümunələri bir az çətinliklə toplayırıq. Orada mərasimlər arasında da müəyyən fərqlər var".

M.Abbasova qeyd etdi ki, eyni zamanda da xalq arasında mövcud olan, amma hələ yazıya alınmayan aşıq dastanlarının onlarca nüsxəsi var ki, bunu da öyrənməyi nəzərdə tuturlar.

*İradə SARIYEVA*